Olub çilik-çilik ömrün aynası,
Hər şey bu dünyada bir əfsanədir,
Başım bədənimə ağırlıq edir!..

Allahdan küsmüşəm, bəndəsi kimdi?
Göz yaşım doğuldu, içimdə çimdi.
Türkücən söyləyim, neyləyim şimdi,
Həyat oyuncaqdır, sərt qəhədir!
Başım bədənimə ağırlıq edir!..

Mən Vətən itirdim Şuşa yaşında,
Qanım çiçəkləndi, hər bir daşında,
Biz yoxuq Allahım, bəs yaddaşında?!
Nə qədər şirinmiş torpağın dadı.
Torpaq deyən kimi ruhum qanadı
Yox, kimsə deməsin bu ah-uf nədir?
Başım bədənimə ağırlıq edir!..

## KƏBİNİN DƏRDİMƏ KƏSİLİB MƏNİM

Mən çürüdüm bu dünyanın içində,
Qoca dünya mənim boyum biçimdə/
Nərim öldü, ömür adlı köçümdə
Ağrıma bax, ağrıma bax, ağrıma!

Dünya çağa, kainat bir bələkdi,
Tanrı məni torpaq üstə qan əkdi,
Sinəmizə çalın-çarpaz dağ çəkdi,
İnsafa bax, insafa bax, insafa!

Fələkləri dırnağında qanıq biz,
Ölü kimi quruca bir canıq biz,
Nə yüz ilik, nə min ilik, anıq biz!
Ömrümə bax, ömrümə bax, ömrümə!

Əzab üçün, ölüm üçün doğulduq,
Bu həyatın qəm selində boğulduq,
Gəldik, getdik, torpaq olduq, kül olduq
Əzaba bax, əzaba bax, əzaba!

Mən ömrümün közü üstə közərdim,
Həyatımı göz yaşımla becərdim,
Bəlkə milyon ildən sonra cücərdim,
Arzuma bax, arzuma bax, arzuma!

Kəbinim dərdimə kəsilib mənim,
Ənvər, ağrın sənə olubdur qənim,
Bürüyüb qəbrimi dumanım, çənim,
Canıma bax, canıma bax, canıma!

## MƏNİ

Allah, ağla üstmdə sən,
Boğularsan tüstümdə sən.
Mən demirəm qəsdimdəsən -
Bir ağac tək bitir məni!..

Yerdə bir daşa dönmüşəm,
İçimdə yanıb sönmüşəm,
Bəlkə göylərdən enmişəm
Tanrım, yerdən götür məni.

Dərdin gözü qap qaradı,
Saçlarımı dərd daradı,
Allah, ürəyim yaradı,
Bu dünyadan itir məni.

Gözümlə qəbir qazıram,
Qəbrimə şeir yazıram,
Ölməyə çoxdan hazıram,
Dərgahıma ötür məni.

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 18 fevral.- S. 23.**